ZAMAN
INTERNATIONAL NEWSPAPER
AZƏRBAYCAN
www.zaman.az
17-18 FEVRAL 2009

# Türkiyə Bəxtiyar Vahabzadənin adını liseydə əbədiləşdirdi

Türkiyənin təhsil naziri Hüseyin Çelik xalq şairinin ölümündən sarsıldığını dilə gətirib. O, bu münasibətlə verdiyi açıqlamasında Bəxtiyar Vahabzadəni türk dünyasının ən böyük şairlərindən biri və Azərbaycan ədəbiyyatının bülbülü adlandırıb: "Başda azəri dostlarımız olmaqla, türk dünyasına, şairin ailəsinə, eləcə də onu sevənlərə başsağlığı verirəm. Mərhuma Allahdan rəhmət diləyirəm. Bəxtiyar Vahabzadənin əziz xatirəsini yaşatmaq üçün gələn tədris ilində Adanada fəaliyyətə başlayacaq Sosial Elmlər Liseyinə onun adını verəcəyik". Qeyd edək ki, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, Baş nazir Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin Sədri Köksal Toptan və qardaş ölkənin bir sıra tanınmış şəxsləri şairin ölümü ilə bağlı başsağlığı veriblər. Gül Bəxtiyar müəllimin vəfatını, sadəcə, türk dünyası üçün deyil, dünya ədəbiyyatı üçün böyük bir itki adlandırıb. Ərdoğan isə tükcəni yaşadan ən böyük şairlərdən olan Bəxtiyar Vahabzadənin vəfatından üzüldüyünü bildirib. Fəthullah Gülənin isə başsağlığı mesajında deyilir: "Türk-İslam dünyasının böyük şairi, filosofu Bəxtiyar Vahabzadənin vəfatını böyük kədər hissi ilə qarşıladım".